UOT 316
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5078

# İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARDA SOSİAL PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN SOSİAL SİYASƏT

**RAUF ŞAMİLOVİÇ ABBASOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant*
*Azərbaycan Respublikası, Bakı ş.,*
*İstiqlaliyyət küç., 30. AZ1001*
*E-mail: abbasovraufshamilovich@gmail.com*
*ORCID : 0009-0006-4553-8922*

**XÜLASƏ**

Məqalədə işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən sosial problemlərin həllinin mühüm strateji istiqamətləri və xarakteri təhlil edilir. Sosial problemlərin həlli strategiyasının həyata keçirilmə mexanizmləri tədqiqatın əsas hissəsini təşkil edir. Məqalədə sosial siyasətin uğurla icra olunmasında idarəetmə modelinin kompleks şəkildə tətbiqi sosial müdafiənin mühüm xarakteri kimi qeyd olunur. Tədqiqatda sübut edilir ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən “Qarabağ KOB-ları” layihəsi, DOST modeli təkcə sosial problemlərin həlli istiqamətində atılan adi addımlar deyil, həm də dövlətin sosial siyasətinin bünövrəsini təşkil edir. Məlum olur ki, regionda sosial problemlərin uğurlu həlli üçün təkcə fiziki bərpa yox, həm də sosial müdafiə strategiyasının əsaslı formada qurulması vacibdir. Təklif etdiyimiz “Rəqəmsal iştirak” adlı sistem kimi sosial siyasətdə sakinlərin lokal xarakterli aktiv iştirakına imkan yarada biləcək platformaların qurulması sosial siyasətin tərəqqisinə öz töhfəsini verə bilər. Qarabağda hazırda mövcud olan “Ağıllı kənd” kimi layihələrdə bu platformaların asanlıqla tətbiq edilə bilmə imkanı da diqqəti cəlb edir. Qarabağ sakinlərinin sosial müdafiəsinin əsaslı şəkildə təmin edilməsi Azərbaycanın bir dövlət kimi işğaldan azad etdiyi torpaqlarda yürütdüyü sosial siyasətin əsas prioriteti hesab edilir.

**Açar sözlər:** *Sosial problem, sosial siyasət, sosial xidmət, rifah, Qarabağ, müharibə*

Sosial siyasət müasir dövrdə dövlətlərin vətəndaş qarşısında məsuliyyət daşıdığı əsas sahələrdən birini təşkil edir. Sosial siyasət meydana gəldiyi ilk zamanlarda iqtisadi siyasətin tərkib hissəsində idi. Sonradan elmin bu sahəsi inkişaf etmiş və inkişaf etdikcə də, tamamilə ayrı bir məfhum kimi rol oynamağa başlamışdır. Sosial siyasət insanların rifah halını yaxşılaşdırmağı hədəfləyir və xüsusilə də müəyyən bir əlverişsiz vəziyyətdə olanların rifahı ilə maraqlanır. Dövlətlərin sosial siyasəti onların vətəndaşlarla əlaqələrinin qurulmasında mühüm əsas təşkil edir. Sosial siyasəti zəif olan ölkələrdə xalqla dövlət qurumları arasında da uçurum yaranır. Sosial siyasət həm ümumi rifahla, həm də rifahın sağlamlıq, təhsil, gəlir və məşğulluq kimi həyatın vacib aspektlərinə uyğun formada müxtəlif qruplar arasında necə bölüşdürülməsi ilə də maraqlanır.

Sosial siyasətin ən az üç fərqli mənası mövcuddur: Birincisi, siyasət və ya siyasətlər toplusunun nəticəsi kimi, yəni siyasətin təsiri olaraq formalaşan sosial siyasət. İkincisi, bir fənn və ya təhsil sahəsi kimi sosial siyasət və üçüncüsü isə ictimai rifahı yaxşılaşdırmaq üçün fəaliyyət prosesi kimi ələ alınan sosial siyasət [3]. Bütün bunlar sosial siyasətin real və fərqli cəhətlərini əks etdirsə də, onu qeyd edə bilərik ki, bunlar özlüyündə birlik təşkil edir. Sosial siyasət fəaliyyət istiqamətləri ilə əlaqədar çox geniş sahələri əhatə edir, ona görə də onu siyasətin nəticəsi və insanların rifahını yaxşılaşdırmağa xidmət edən bir mexanizm kimi görməliyik.

Qarabağda da həyata keçirilən siyasətin başlıca sahələrindən birini sosial siyasət təşkil edir. “Böyük Qayıdış” çərçivəsində tətbiq edilən bu proses dövlətin Qarabağ siyasətinin özəyini ehtiva edir. Çünki insan həyatının normal davamlılığı üçün sosial siyasətin həyata keçirilməsi vacibdir. Sosial siyasətdə dövlət qurumları, vətəndaşlara sosial xidmətlərin göstərilməsində birbaşa və ya vasitəçi rolu oynaya bilir. Qərar qəbul etmə prosesində sosial siyasət institutları həyati önəm daşıyır. Onların digər dövlət qurumlarına münasibətdə nə qədər muxtariyyətə malik olduğu, eləcə də səlahiyyətlərinin dairəsi və resurslarının ölçüsü sosial xidmətlərin reallaşdırılması mərhələsində əhəmiyyət daşıyır [4].

Dövlət daxilində zəif sosial siyasətin mövcudluğu həm ölkənin sabitliyini, həm də vətəndaşların rifahını və iqtisadiyyatın dinamik inkişafını təhdid edir və bir sıra problemlərin yaranmasına səbəb olur. Əsaslı sosial siyasət qurulmadan sosial problemlərin həllindən söhbət də gedə bilməz. Sosial siyasətin təsirli formada həyata keçirilməməsi təkcə maddi çatışmazlıq yaratmaqla qalmır, həm də cəmiyyətin struktur bütövlüyünü yaralayır.

Qarabağda sosial siyasətin əsas istiqamətləri kimi əhalinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması, əhalinin məşğulluq imkan-

larının artırılması, əmək və məşğulluq, sosial təminat sistemlərinin müasir tələblərə uyğun qurulması müəyyənləşdirilmişdir. Azərbaycanın müasir inkişaf istiqamətini "sosialyönümlü dövlət" prinsipi təşkil edir. Burada Qarabağdakı sosial siyasətin önəmi də çox mühüm əsas daşıyır. Qarabağda yaradılan sosial xidmət sahələri bunun real sübutuna çevrilmişdir. Qarabağ müharibəsinin ardından əsas büdcə ayırmaları içərisində sosial siyasət başlıca mövqelərdə dayanır.

44 günlük Qarabağ müharibəsi nəticəsində sosial problemlərin həll edilməsinin əhəmiyyəti özünü daha da qabarıq şəkildə göstərdi. Son illərdə tətbiq edilməyə başlanan və bu sahədə Azərbaycanın da öz yerli layihələri ilə birlikdə həyata keçirilən proqramlar silsiləsi sosial problemlərin əhatə dairəsinin genişlənməsinin qarşısını aldı. Vətən müharibəsi nəticəsində həssas əhali qruplarının sayında artım oldu. Əlbəttə, bu hər bir müharibənin qaçınılmaz nəticəsidir. Lakin sistemli sosial siyasətin tətbiqi işğaldan azad edilmiş ərazilərdə sosial problemlərin həlli istiqamətində sosial xidmətlərin göstərilməsinə geniş imkan yaratdı. Burada ən önəmli faktor sosial xidmətlərin dərhal və effektiv formada göstərilməsi idi. İlk görülməli işlərdən birini təkcə Qarabağda dövlət orqanları üçün müəssisələrin bərpası yox, həm də yeni bir sosial idarəetmə modelinin qurulması təşkil edirdi. Sosial idarəetmə modelinin düzgün planlaşdırılmaması, qısa və ya uzun müddətdə problemlərin üzə çıxması deməkdir. Bu idarəetmə modeli ərazidə problemlərin çoxluğu səbəbindən kompleks xarakter daşıyır. Sosial siyasətin işlənib hazırlanması və həyata keçirilməsi zamanı konkret regionların sosial-iqtisadi xüsusiyyətləri mütləq şəkildə nəzərə alınmalıdır [5]. Yəni, Qarabağda sosial siyasətin həyata keçirilməsi, vəziyyəti digər rayonlara nisbətdə daha əlverişli olanlarından başlanıb böhran vəziyyətində olan rayonlara doğru yönəldilməlidir.

Sosial siyasətin tam mənada özünü doğrultması üçün güclü infrastruktur tələb olunur. Əlbəttə, burada sadəcə sosial infrastrukturdan söhbət gedə bilməz. Çünki siyasət anlayışı özündə müxtəlif qurumların fəaliyyətini tələb edir. Buna görə də iqtisadi infrastrukturun inkişafı sosial infrastrukturun qurula bilməsi üçün mühüm bünövrə təşkil edir. Yerli səviyyədə effektiv, şəffaf və hesabatlı idarəetmə orqanlarının formalaşdırılması, prosesin dayanıqlılığı üçün kritik əhəmiyyət kəsb edir [6]. Sosial siyasətin əhatə etdiyi istiqamətlər çox genişdir. İşğaldan azad edilmiş ərazilərdə sosial siyasətin əhatə etdiyi ən mühüm istiqamətləri aşağıdakı kimi göstərmək mümkündür: -Məşğulluğun təmin edilməsi və əmək bazarının formalaşması; -Sosial infrastruktur və məskunlaşma prosesləri; -Sosial müdafiənin tam mənada tətbiq edilməsi; -DOST (Dayanıqlı və Operativ Sosial Təminat) modeli.

İşğaldan azad edilmiş ərazilərdə özünüməşğulluq proqramlarının və layihələrinin həyata keçirilməsi sakinlərin yaşayışının layiqli səviyyədə təmini üçün mühüm əsas təşkil edir. İşğaldan azad edilmiş ərazilərə qayıdan şəxslərə öz bizneslərini qurmaq üçün müxtəlif şərait yaradılır, onlara biznes sahələri ilə əlaqədar avadanlıqlar və xammal təmin edilir. Bu layihələr içərisində xüsusi fərqlənənlərindən biri "Qarabağ KOB-ları" layihəsidir. "Qarabağ KOB-ları" layihəsinin fəaliyyətə başlaması ilə Xocalıda, Laçında, Şuşada, Füzulidə və Zəngilanda yeni biznes subyektləri yaranmış və bölgənin iqtisadiyyatının inkişafına dəstək mexanizmi formalaşdırılmışdır. Qarabağ və Şərqi Zəngəzura köçürülən 759 sakinə, o cümlədən Laçın rayonuna köçürülən şəxslərdən 85 nəfərə bu proqram çərçivəsində müxtəlif mal və materiallar formasında aktivlər verilməklə, onlar üçün kiçik ailə təsərrüfatları yaradılmışdır [2].

İşğaldan azad edilmiş torpaqlara köçürülən əhalinin dağıdılmış evlərinin əvəzində onlara tam təmirli mənzillər və ev avadanlıqları təmin edilir. Əlbəttə, bu özlüyündə çox böyük xərclər tələb edir. Belə bir layihənin reallaşdırılması ancaq sistematik şəkildə və tədricən həyata keçirilə bilər. Köçürmə prosesi həyata keçirilərkən sakinlərin harada işləyəcəyi, öz qazanclarını nəylə təmin edəcəkləri də layihəyə daxil edilir, onlar üçün bir çox güzəştlər həyata keçirilir. Bu da Qarabağda həyata keçirilən sosial siyasətin uzumüddətli planlamaya uyğun tətbiq edildiyini göstərir. Əks halda, insanları həmin regionda məskunlaşdırmaq heç bir nəticə verməz, qısa müddət keçdikdən sonra onlar evlərini tərk edər və qazanc üçün köçmək məcburiyyətində qalarlar.

Sosial xidmətlər DOST konsepsiyası çərçivəsində "vahid pəncərə" modeli ilə, şəffaf, müasir və sürətli şəkildə vətəndaş məmnunluğu prinsipi əsas alınaraq təqdim edilir. Vətəndaşlara sosial xidmətlərin göstərilməsi məqsədilə hələ də "Böyük Qayıdış"ın davam etdirilməsi üçün Qarabağın bir çox bölgəsində DOST mərkəzlərinin, DOST filiallarının yaradılması istiqamətində tikinti işləri aparılır. Qarabağa köçürülən sakinlərin DOST xidmətlərindən yararlanması məqsədilə hələ yeni açılan Tərtər və Şuşa DOST filialları, Qarabağ Regional DOST Mərkəzi, Kəlbəcər və Füzulidə DOST məntəqələri və Zəngilan rayonunda "Smart DOST" məntəqəsi fəaliyyət göstərməyə başlamışdır [1].

Qarabağa köçürülən həssas əhali qruplarının inteqrasiyası burada xüsusi diqqəti cəlb edir. Çünki,

onlar hamıdan əvvəl xüsusi qayğıya ehtiyac duyurlar və infrastrukturu tamamilə dağıdılmış bir regionda hər bir sosial xidmətə çıxışın mövcudluğu onlar üçün çox əhəmiyyət kəsb edir. Qarabağa köçürüləcəyi planlaşdırılan və əlilliyi olan şəxslər və uşaqlar üçün ixtisaslaşmış sosial xidmət proqramları hazırlandı. Planlar əsasında xidmətlərə çıxışın hansı şəraitdə, hansı məsafədə ediləcəyi öncədən müəyyənləşdirildi və buna uyğun infrastruktur obyektləri qurulmağa başlandı. İnfrastrukturun tam mənada qurulması və hər bölgədə yerli xarakter daşıması da, ən birinci prioritetlərdən birini təşkil edir. Çünki həssas əhali qruplarından heç də hamısının sosial xidmət binalarına əlçatanlığı digərləri kimi olmur. Nəticədə onlar üçün tam ayrı bir sistemin planlaşdırılması tələb olunur. Ona görə də işğaldan azad edilmiş regionlara köçürülmə prosesi də mərhələli şəkildə həyata keçirilir. Əgər köçürülmə prosesi bütün sosial infrastrukturlar hazırlanmadan həyata keçirilsə, bu onların həyat şəraitini yaxşılaşdırmaq əvəzinə daha da pisləşdirə bilər. Nəticədə əhalinin sosial probelmlərinin nəinki qarşısı alınmış olar, hətta sosial vəziyyətləri daha da gərginləşə bilər.

Fikrimizcə, Qarabağda həyata keçirilən sosial siyasətin idarəedilməsində sakinlər də iştirak edə bilərlər. Bunun dünyada bəzi örnəkləri də mövcuddur. Belə ki, "Rəqəmsal iştirak" da adlandıra biləcəyimiz bu sistem bəzən Cənubi Koreyada "m-Voting" adı ilə, Estoniyada isə "Rahvaalgatus" adlı platforma vasitəsilə həyata keçirilir. Bu sistem əsasında sakinlər hansı sosial xidmətlərin öncəlikli olması barədə qərar qəbul edə bilərlər. Köhnəlmiş və ləng bürokratik mexanizmlərdən qurtularaq sosial problemlərin həlli üçün səs verib, həllində iştirak da edə bilərlər. Əlbəttə, həmin rəqəmsal iştirakçılıq platformaları arasında bir sıra fərqlər mövcuddur, lakin hər biri eyni əsasa, yəni vətəndaşların sosial müdafiə sisteminin yaxşılaşdırılmasına xidmət edir. Əsasən bölgələr üzrə yerli əhəmiyyət daşıya biləcək belə bir platformanın Qarabağda qurulması sosial siyasətin də inkişafına töhfə verə bilər. Çünki sosial siyasət əsasən "ümumi xarakterdə" icra olunur. Yəni müəyyən ərazi, şəhər üçün hər hansısa işin planı aparılır və onun icrasına başlanır. Lakin dəyişikliklər lazım gəldikdə və ya çox lokal xarakter daşıyan işlərin icrası üçün bəzən yerli əhəmiyyətli sosial siyasətə təsir edə biləcək sistemlərin qurulmasına ehtiyac duyulur. Qarabağda yaradılan "Ağıllı kənd" layihələri əslində bu platformaların qurulmasına imkan verir və onun tətbiqini asanlaşdırır.

Yerli icmaların sosial siyasətin həyata keçirilməsi prosesinə cəlb edilməsi sosial problemlərin həlli prosesinin effektivliyini yüksəldir. Çünki yerli iştirakın təmin edilməsi insanların problemlərin həll edilməsinə olan inamını artırır, onların öz sosial problemlərinə daha yaxından bələd olması da burada xüsusi əhəmiyyət kəsb edir. İcmalarla işin aparılması sosial vəziyyətin sabit və davamlı strukturda irəliləməsinə dəstək verir. İnsanların dövlət qurumlarına olan güvənini də kəskin surətdə artırır. Bu da gələcək sosial proqram və yerli əhəmiyyət kəsb edə biləcək növbəti işlərdə insanların bu dəfə daha da yaxından və həvəsli birgə iştirakına imkan yarada bilər. İcmaların belə işlərə cəlb edilməsi Avropa ölkələrində sosial siyasətin yerli iştirakda ən əhəmiyyətli nüvələrindən birini təşkil edir.

Münaqişə vəziyyətindən çıxmış cəmiyyətlərdə hökümət strukturları da adətən zəifləmiş olur. Məhz bu səbəbdən sosial siyasətin ölkənin hər tərəfində bərabər formada paylanılmasına imkan yaranmır, əhalinin sosial müdafiəsinin qısa müddətdə və hərtərəfli təmini tam şəkildə həyata keçirilə bilmir. Buna misal kimi hazırda da davam edən Livan-İsrail müharibəsini göstərə bilərik. Livanda olan vəziyyət sosial-iqtisadi cəhətdən gərgin olaraq dəyərləndirilir. Əhalinin miqrasiyası prosesi sürətlənir və ölkənin də iqtisadi baxımdan kasad vəziyyətdə olması sosial problemlərin də həllinə böyük maneələr törədir. Belə bir şəraitdə sosial siyasətin hərtərəfli təminatından da söhbət gedə bilməz. Livanda vahid idarəetmə strukturunun da olmaması sosial siyasətin güclənməsinə imkan vermir.

Münaqişədən çıxmış zonaya humanitar yardımların göstərilməsi həyati funksiya daşısa da, davamlılığı və əhatəliliyi cəhətdən məhdud olur. Güclü iqtisadi strukturlara malik dövlətlər münaqişənin təsirlərindən daha asanlıqla yaxa qurtara bilirlər. Azərbaycan bəlkə də, dünya ölkələri arasında bu cəhətdən istisna xarakter daşıyır. Neft və qaz ehtiyatlarının bir qisminin Qarabağın dirçəldilməsi proqramına ayrılması Azərbaycanın bu uğuru əldə etməsində həddindən artıq böyük rol oynadı. İran-ABŞ müharibəsinin 2026-cı il 28 fevral tarixindən etibarən may ayına qədər olan müddətdə hələ də davam etməsi dünya ölkələrinin Azərbaycanın sahib olduğu neft və qaz ehtiyatlarına olan marağını artırmış oldu. Bu da, öz növbəsində, Qarabağda dirçəlmənin sürətlənməsinə təminat yaradacaq maliyyə resurslarının artmasına imkan yaratdı. Unutmaq olmaz ki, sosial siyasətin davamlılığı, şübhəsiz, iqtisadiyyatın inkişafından əhəmiyyətli surətdə asılıdır.

İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən sosial siyasət əhatəliliyi ilə seçilir və bir o qədər də strateji əhəmiyyət daşıyır. Qarabağda sosial siyasət

üzrə həyata keçirilən işləri bir neçə xarakterə uyğun təsnifləşdirməyimiz mümkündür: -Reabilitasiya xarakterli – uzunmüddətli köçkünlük həyatının fəsadlarını və müharibə travmasını aradan qaldırmağa yönəlmiş sosial siyasət; -Stimullaşdırıcı xarakterli – regionda sosial-iqtisadi aktivliyi yüksəltmək üçün müxtəlif güzəştlər və imtiyazları özündə ehtiva edən sosial siyasət; -Strateji xarakterli – "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri ilə əhalinin sosial müdafiəsinin tam təmin edilməsini hədəfləyən sosial siyasət.

Qarabağın azad edilməsindən sonra bu torpaqların hər bir bölgəsində sosial siyasətin həyata keçirilməsi çox böyük vaxt və resurs tələb edir. İşğaldan azad edilmiş ərazilərdə sosial siyasətin həyata keçirilməsi üçün qarşıda dayanan problemləri aşağıdakı kimi göstərməyimiz mümkündür: Böyük maliyyə tələbatı;-Dağıdılmış infrastruktur;-Minalanmış ərazi.

İşğaldan azad edilmiş torpaqlarda sosial siyasətin həyata keçirilməsi üçün böyük maliyyə resursu tələb olunur. Bu maliyyə yükü dövlətin büdcəsindən böyük pul ayırmaları ilə tədricən həyata keçirilir. Maliyyə yükünün çoxluğu sosial müdafiə xərclərində artımların olmasına səbəb olur. Digər tərəfdən də, sosial xidmətlərdən yararlanan sakinlər üçün müavinətlərin, pensiyaların və digər ödənişlərin həyata keçirilməsində böyük pullar xərclənir. Bu mənada resursların düzgün bölüşdürülməsi Qarabağda sosial müdafiə sisteminin də gələcəyinə təminat verir.

Münaqişədən sonrakı dövrdə tətbiq edilən tək və sabit bir sosial siyasətdən danışmaq düzgün olmazdı. Çünki münaqişə ocağının normallaşdırılması üçün tətbiq edilən plan və proqramlar sosial, iqtisadi və digər kontekstual səbəblər ucbatından davamlı şəkildə tətbiq edilə bilmir. Effektiv siyasət də bu mənada mərhələli xarakter daşımalıdır. Tək və sabit bir sosial siyasətin tətbiqi bir neçə ay və ya il sonra özünün köhnə dövründən əhəmiyyətli surətdə dəyişdiyi üçün artıq müasir standartlara cavab verə bilməyəcəkdir. Tətbiq ediləcək sosial siyasət sosial təbəqələşməni nəzərə almalıdır. Qarabağda icmalar arasında yarana biləcək etnik gərginlik məsələnin surətli inkişafına zərər vura bilər. Qarabağda həyata keçirilən siyasətlər müxtəlif qruplar arasında anlaşma və barışığı təşviq etməyə çalışmalı, münaqişənin səbəb olduğu ideyanın asanlıqla aradan qaldırıla bilinməyəcəyini də nəzərə almalıdır.

Tətbiq ediləcək sosial siyasətin effektiv hesab oluna bilməsi üçün bir sıra meyarlar mövcuddur. Qarabağ kontekstində onları aşağıdakı kimi qruplaşdırmağımız mümkündür: Sosial ədaləti və bərabərliyi təşviq etmək; Azlıq icmalarının bərpa prosesinə cəlb olunmasını təmin etmək ;-Onlar üçün bir sıra asanlıq və maddi yardımların təşkil edilməsi;-Azərbaycanın dövlət strukturlarına və sosial xidmətlər sisteminə çıxışların sürətləndirilməsi və.

Qarabağda tətbiq edilən sosial siyasətin əsas xüsusiyyətlərindən biri də idarəetməni və qanunun aliliyini əsas prinsip kimi götürməsi və icma institutlarının qurulmasına şərait yaratmasıdır. Şəffaf idarəetmə mexanizmlərinin yaradılması, vətəndaşların təhlükəsizliyinin və hüquqlarının yüksək həddə təmini Qarabağda tətbiq edilən sosial siyasətin əsasını təşkil edir. Dünyanın müxtəlif yerlərində baş verən müharibələr nəticəsində yaranan münaqişə ocaqlarında bu problemlərin həll edilə bilməməsi sosial vəziyyətin həddən artıq aşağı səviyyələrdə olmasına gətirib çıxarmışdır.

Qarabağda tətbiq edilən sosial siyasət sosial birliyi təşviq etməklə yenidənqurma prosesinin psixoloji və sosial ölçülərini nəzərə alaraq sosial problemlərin həllinə imkan yaradır. Bütün bu sadaladıqlarımıza və gələcəkdə etnik zəmində münaqişə xarakteri daşıya biləcək hər hansısa bir problemin həllinə yalnız, sülh quruculuğu təşəbbüsü, qarşılıqlı dialoq və barışıq prosesləri ilə nail olmaq mümkündür.

Əhalinin dağıdılmış ərazilərə uyğunlaşması, miqrasiya problemləri də burada diqqəti cəlb edən əsaslardan biri kimi ortaya çıxır. Qarabağ onların doğma yurdu olsa da, bəzi rayonlarda hətta “daş üstə daşın” belə tapılmaması onların xatirələrində qalan yurdlarının dəyişdiyini göstərir. Bu zaman onlara sosial-psixoloji dəstəyin göstərilməsi, yəni bu xidmətlərə də əlçatanlığın təmini Qarabağda həyata keçirilən sosial siyasətin xarakterindən xəbər verir. Müharibənin travmasını yaşamış gənc nəslin psixoloji adaptasiyası uzunmüddətli dəstək tələb edir. Bölgədə iqtisadiyyatın inkişaf etdirilməsi və sosial siyasətin uğurlu tətbiqi ilə uzunmüddətli sosial-iqtisadi reinteqrasiyaya birbaşa nail olmaq mümkündür.

Minalanmış ərazilərin çoxluğu sosial siyasətin həyata keçirilməsində başlıca baryerlərdən birini təşkil edir. Minalanmış ərazinin təmizlənməsi sosial infrastrukturun icrasında gecikmələrə səbəb olur. Mina təhlükəsinin olması Qarabağa qayıdan əhalidə qorxu hissi oyadır, onlarda psixoloji gərginlik yaradır və sosial reabilitasiya prosesini ləngidə bilir. Bütün bunlar sosial siyasətin tətbiqində çətinliklərə və bəzən də prosesin mürəkkəbliyi səbəbindən gecikmələrə səbəb olur. “Böyük Qayıdış” layihəsi əsasında həyata keçirilən sosial siyasət Qarabağın sosial müdafiə sferasının təməlini təşkil edir.

Böyük Qayıdış üzrə İkinci Dövlət Proqramına keçdikcə, əsas istiqamət icma sabitləşməsindən sistemli miqyasa doğru genişlənir. Əsas makrososioloji

hədəf təqribən 700000 vətəndaşın repatriasiyasının həyata keçirilməsindən ibarətdir. Bu da davamlı sosial siyasətin möhkəm bünövrə üzərində qurulması ilə hədəflənə biləcək bir məqsəddir. Bu, özlüyündə dövlət tərəfindən regionda planlaşdırılmış ən böyük köç planıdır.

Azərbaycanın Qarabağda həyata keçirməyə davam etdiyi münaqişədən sonrakı bərpa modeli 17-22 may tarixləri arasında Bakı şəhərində keçirilən Dünya Şəhər Forumunun (WUF13) 13-cü Sessiyasında öz təsdiqini bir daha tapdı [7]. Azərbaycanın ev sahibliyi etdiyi bu tədbirdə dünyaya Qarabağda həyata keçirilən bərpa modeli təqdim edildi.

Böyük Qayıdışın unikal miqyası Azərbaycanın münaqişədən sonrakı yenidənqurmasını qlobal şəhər və sosial planlaşdırma üçün həqiqi müstəvidə bir nümunəyə çevirdi. Bakı şəhərində keçirilən 13-cü Dünya Şəhər Forumunda aparılmış siyasi dialoqlar Qarabağ modelinin dəyərini ictimaiyyətin gözündə öz layiqli səviyyəsinə qaldırmış oldu.

Sosial siyasət yenidən bərpa edilməkdə olan Ağdam və Füzuli kimi şəhərlərin inteqrasiya olunmuş ictimai xidmət çərçivələri ilə əlaqələndirilməsini və möhkəmləndirilməsini tələb edir. İşğaldan azad olunmuş həmin şəhərlərə geri qayıdan şəxslərin Bakı ilə müqayisədə regional bərabərsizliklərlə və sosial xidmətlərə çıxış imkanının məhdudluğu kimi çətinliklərlə üzləşməməsini təmin etmək üçün yeni tikilmiş regionlarda sosial siyasət bütün müəssisə və xidmətləri kompleks şəkildə əhatə edərək mərkəzləşdirilmiş inzibati xidmətlərə dərhal çıxış imkanı yaratmalıdır. İşğaldan azad edilmiş torpaqlarda tətbiq olunan sosial siyasət göstərir ki, müharibədən sonrakı uğurlu yenidənqurma və insan kapitalının inkişafını vahid bir proses kimi qəbul etməyimiz lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi. (2026a, 20 fevral). DOST xidmətləri şəbəkəsi bu il daha da genişlənəcək. https://dost.gov.az/news/1455*
2. *Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi. (2026b, 11 mart). Laçında özünüməşğulluq proqramı çərçivəsində qurulmuş təsərrüfatlara baxış olub. https://dost.gov.az/news/1469*
3. *McClelland, A., & Smyth, P. (2015). Social policy in Australia: Understanding for action (3rd ed.). Oxford University Press.*
4. *Valera, C. F., & Roco, A. F. (2014). Building consensus and establishing compacts in social policy. United Nations Publication.*
5. *Həşimova, A., & Əliyeva, L. (2023). Sosial siyasətin regional aspektləri və əsas istiqamətləri. “Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri” adlı respublika elmi-praktiki konfransının materialları. Bakı, 417–422*
6. *Şıxılı, K. Ş. (2025). Qarabağ və Şərqi Zəngəzurda sənaye siyasəti və gənclərin reintegrasiyası. ADAU-nun Elmi əsərləri, (3), Gəncə, 56–64.*
7. *World Urban Forum. (2026, 21 may). Hər kəs üçün yaşayiş yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri. https://wuf13.az/az/*


## СОЦИАЛЬНАЯ ПОЛИТИКА, РЕАЛИЗУЕМАЯ ДЛЯ РЕШЕНИЯ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ НА ТЕРРИТОРИИ, ОСВОБОЖДЕННОЙ ОТ ОККУПИРОВАННЫХ ЗЕМЕЛЬ.

**Рауф Шамилович Аббасов,** ***докторант***


**РЕЗЮМЕ**

В статье анализируются важные стратегические направления и характер решения социальных проблем, реализуемых на освобожденных территориях. Основную часть исследования составляют механизмы реализации стратегии решения социальных проблем. В статье отмечается комплексное применение модели управления в успешной реализации социальной политики как важная характеристика социальной защиты. Исследование доказывает, что проект «Карабахские МСП» и модель ДОСТ, реализованные на освобожденных территориях, являются не только обычными шагами на пути решения социальных проблем, но и составляют основу социальной политики государства. Выясняется, что для успешного решения социальных проблем в регионе важно не только проводить физическую реставрацию, но и разработать надежную стратегию социальной защиты. Создание платформ, позволяющих активно участвовать в социальной политике на местном уровне, таких как предлагаемая нами система «Цифровое участие», может способствовать прогрессу социальной политики. Внимание также привлекает возможность легкого применения этих платформ в таких проектах, как существующий в Карабахе «Умная деревня». Обеспечение социальной защиты жителей Карабаха считается главным приоритетом социальной политики, проводимой Азербайджаном как государством на территориях, освобожденных от оккупации.


**Ключевые слова:** *социальная проблема, социальная политика, социальное обеспечение, благосостояние, Карабах, война*

# SOCIAL POLICY IMPLEMENTED TO SOLUTION SOCIAL PROBLEMS IN THE LAND FREED FROM OCCUPIED LAND

**Rauf Shamilovich Abbasov,**
***doctoral student***

**SUMMARY**

The article analyzes the important strategic directions and nature of the solution of social problems implemented in the liberated territories. The mechanisms for implementing the strategy for solving social problems constitute the main part of the study. The article notes the complex application of the management model in the successful implementation of social policy as an important characteristic of social protection. The study proves that the "Karabakh SMEs" project and the DOST model implemented in the liberated territories are not only ordinary steps taken towards solving social problems, but also constitute the foundation of the state's social policy. It turns out that for the successful solution of social problems in the region, it is important not only to carry out physical restoration, but also to establish a solid social protection strategy. The establishment of platforms that will allow for the active local participation of residents in social policy, such as the system called "Digital Participation" that we propose, can contribute to the progress of social policy. The possibility of easily applying these platforms in projects such as the "Smart Village" currently existing in Karabakh also attracts attention. Ensuring the social protection of Karabakh residents is considered the main priority of the social policy pursued by Azerbaijan as a state in the territories liberated from occupation.

**Keywords:** *Social problem, social policy, social service, welfare, Karabakh, war.*

*Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*dosent Burzü Bərxudarov*
*Məqalə redaksiyaya daxil olub: 24.03.2026*
*Çapa qəbul olunub: 29.04.2026*

*The date of the admission of the article to the editorial office: 24.03.2026*
*Accepted for publication: 29.04.2026*